Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.7.

# "Blackstone" ilə əməkdaşlıq təkcə sərmayə gəlirləri deyil, həm də strateji inkişafdır

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və "Blackstone" şirkətinin strateji tərəfdaşlığa başladıqları vaxtdan 10 il keçir. Bu dövr ərzində ARDNF "Blackstone" tərəfindən idarə olunan müxtəlif daşınmaz əmlak və özəl səhm fondlarına ümumilikdə 1 milyard dollardan çox sərmayə yatırıb.**



Prezident İlham Əliyev ABŞ-yə işgüzar səfəri çərçivəsində Nyu York şəhərində "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşüb. Qeyd edək ki, dövlətimizin başçısının ABŞ-də keçirdiyi görüşlərin hər biri qarşı tərəfin müraciəti əsasında baş tutub. Bu da təbii ki, ölkəmizə böyük maraqdan və Prezidentimizə dərin hörmət hissindən irəli gəlir. Sözügedən görüş də məhz bunu göstərdi. Belə ki, Conatan Qrey Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və inkişaf proseslərinin beynəlxalq investorlar üçün cəlbedici imkanlar yaratdığını vurğulayıb. O, rəhbərlik etdiyi şirkətin Azərbaycanla, xüsusilə də ARDNF ilə uğurlu əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu qeyd edib, ölkəmizdə formalaşmış əlverişli investisiya mühitini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev Azərbaycanın dünya miqyasında aparıcı maliyyə institutları ilə əməkdaşlığa böyük önəm verdiyini, ölkəmizdə sabitlik, şəffaflıq və davamlı inkişaf prinsipləri əsasında formalaşmış iqtisadi mühitin yeni tərəfdaşlıqlar üçün əlverişli zəmin yaratdığını vurğulayıb.

Xatırladaq ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən böyük şirkətlərindən biri olan "Blackstone" 1985-ci ildə Nyu Yorkda təsis olunub. Şirkət özəl kapital, daşınmaz əmlak, kredit, infrastruktur, data mərkəzləri, bərpaolunan enerji və hedc fondları üzrə investisiya portfellərini idarə edir. Hazırda "Blackstone"nin idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon dollardan çoxdur. Baş ofisi Nyu Yorkda yerləşən şirkət London, Honkonq, Dubay, Sinqapur və Tokio da daxil olmaqla, dünyanın 27 şəhərində fəaliyyət göstərir.

"Blackstone" minlərlə institusional müştərinin - pensiya fondlarının, suveren fondların, sığorta şirkətlərinin və nüfuzlu universitetlərin nəzdində yaradılmış fondların, eləcə də milyonlarla fiziki şəxslərin vəsaitlərini idarə edir. Ümumilikdə yüz milyonlarla insan tərəfindən uzunmüddətli yığımlarının idarə edilməsi bu şirkətə həvalə olunub.

Hazırda "Blackstone" dünyada 12 mindən çox daşınmaz əmlaka sahibdir. Daşınmaz əmlak investisiyası üzrə dünyada əldə edilmiş bir çox rekord göstərici bu şirkətə məxsusdur. İki il əvvəl "Blackstone Real Estate Partners X" Fondu investorlardan 30,4 milyard dollar vəsait toplayaraq tarixdə ən böyük özəl daşınmaz əmlak fondu kimi qeydə alınıb. Bundan əlavə, "Blackstone" 2007-ci ildə "Hilton" hotellər şəbəkəsini 26 milyard dollara əldə edib və bu, hotel sahəsində həmin tarixdəki ən böyük əməliyyatlardan biri olub.

"Blackstone" şirkətinin yaşayış sektoru üzrə sərmayələri yüz minlərlə mənzili, milyonlarla insanı əhatə edir. Məsələn, "American Campus Communities" platforması vasitəsilə şirkət tərəfindən 140 mindən çox tələbə yataq yeri ilə təmin olunur. Bu isə ABŞ-nin ən böyük 10 universitetinin tələbə qəbulunun cəminə bərabərdir.

"Blackstone"nin idarə etdiyi Link Logistics 46 milyon kvadratmetr anbar və logistika mərkəzinə sahibdir. Müqayisə üçün deyək ki, bu, Polşa Respublikasının ümumi logistika mərkəzlərinin cəmi qədərdir. Bundan başqa, "Blackstone" şirkəti 2022-ci ildə Avropanın ən böyük şəhərdaxili logistika platforması olan "Mileway" şirkətinin 21 milyard avro dəyərində rekapitalizasiya prosesini tamamlayıb və bununla da indiyə qədər qeydə alınmış ən böyük özəl daşınmaz əmlak əməliyyatını həyata keçirib.

Dünyanın ən böyük data mərkəzi şirkətlərindən birinin sahibi olan "Blackstone" süni intellekt, bulud texnologiyaları, rəqəmsal xidmətlər və infrastrukturun qurulmasında lider rolunu oynayır. Yaratdığı və investisiya etdiyi şirkətlər vasitəsilə dünyada texnologiya, səhiyyə, çatdırılma kimi meqatrendlərin genişlənməsində rol oynayır. QTS Data Centers platforması 2 qiqavatdan çox elektrik tutumuna malikdir. Bu güc isə San Fransisko kimi böyük şəhərin ev təsərrüfatının enerji istehlakına bərabərdir.

2018-ci ildə "Blackstone"nin rəhbərlik etdiyi konsorsium 20 milyard dollar dəyərində "Thomson Reuters"in "Maliyyə və Risk" biznesində tərəfdaşlıq sazişi bağlayıb. "Refinitiv" adı ilə fəaliyyət göstərməyə başlayan bu bölmə hazırda dünyada ən geniş istifadə olunan maliyyə məlumat platformalarından biridir.

Bundan başqa, 2016-cı ildə "BioMed Realty" şirkətini 8 milyard dollara əldə edən "Blackstone" tibb və texnologiya sahələrini özündə birləşdirən həyat elmləri (life sciences) sektoru üzrə aparıcı şirkətlərdən birinə çevrilib. Onun sahib olduğu binalarda dünyanın aparıcı biotexnologiya şirkətləri, həmçinin Harvard, MIT, Cambridge kimi nüfuzlu universitetləri elm və tibbin gələcəyini formalaşdıran araşdırmalar həyata keçirir.

ARDNF-nin indiyədək "Blackstone" tərəfindən idarə olunan müxtəlif daşınmaz əmlak və özəl səhm fondlarına yatırdığı 1 milyard dollardan çox sərmayə Şimali Amerika, Avropa və Asiya regionlarını əhatə edir. ARDNF üçün "Blackstone" ilə tərəfdaşlıq süni intellekt, rəqəmsal infrastruktur, bərpaolunan enerji, səhiyyə, logistika, yaşayış tipli gələcəyin qlobal iqtisadiyyatını formalaşdıran sektorlara yatırım etmək deməkdir.

Lakin ARDNF-nin "Blackstone" kimi nəhəng bir investisiya şirkəti ilə əməkdaşlığı yalnız sərmayə gəlirləri deyil, həm də strateji inkişaf imkanları yaradır. Bu əməkdaşlıq əsasında ölkəmizdə logistika mərkəzlərinin inkişafı, rəqəmsal infrastrukturun gücləndirilməsi, "yaşıl enerji" layihələrinin reallaşdırılması və tibbi-tədqiqat parklarının qurulması mümkündür. Prezident İlham Əliyevin bu şirkətin rəhbəri ilə görüşü deyilənlərin reallaşacağına böyük inam yaradır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***